# Güneyin ağrılı misraları

**"Dilsiz bir millətin dili olmağa çalışırıq. Son yüz ildə beş azadlıq inqilabının müəllifi olan Güney Azərbaycan xalqının səsi olmağa çalışırıq. "Dil varlığın evidir" – deyə ana dilimizlə ev, yəni varlıq yaratmağa cəhd edirik. Bizim xalq olaraq yarada biləcəyimiz ən dağılmaz, sarsılmaz evimiz məhz ana dilimizdir".**

Əslən güneyli şair-ədəbiyyatşünas, Azərbaycan Yazıçılar Birliyi Cənubi Azərbaycan ədəbiyyatı komissiyasının sədri Sayman Aruzun bu yanğılı sözləri Azərbaycanın Güneyində 35 milyonluq xalqımızın varlığını yaşadan güc və qüdrətin məhz ana dilimiz olduğunu bir daha bizə anladır. Ustad Şəhriyarın "Türkün dili tək sevgili, istəkli dil olmaz", – deyə öydüyü bu dildə sevgimizlə yanaşı, çəkdiyimiz ağrı-acılar da misralara çevrilib bağlı qulaqları, yumulmuş gözləri açır. Dil, eyni zamanda, əski zamanlardan xalqımızın milli varlığını qoruyub yaşatmaq savaşında qılınc və qalxanı olub. Sayman bəyin mətbuatda o taylı yazarlardan bu taylı oxuculara çatdırdığı dil, xalq, milli haqq ağrılı çağdaş şeirlərdən parçaları təqdim edirik:



## Ürəyim çırpınan o tay, bu taydır…

*Gözüm Azərbaycan, başım dumanlı,*
*Ürəyim çırpınan o tay, bu taydır…*
*O tayın qızına bu tayın oğlu,*
*Salamlar, sayqılar diləyir hər an.*

*Bağlı gözlərini aç yollarıma,*
*Gecə gözlərinə Ay gətirəcəm.*
*Sənə varlığımla qızıl tikəsi,*
*Təbrizi gözümdə pay gətirəcəm.*

*Sən mahnılar oxu, mən şeir yazım,*
*Günləri, ayları, ili yaşadaq.*
*Günlərdən, aylardan, illərdən dinməz,*
*Dilsiz bu millətdə dili yaşadaq.*

***Mortəza DİNMƏZ, Təbriz***

## Var məndə

*Torpağam, ellərin ağlar alayı var məndə,*
*Gözüyaşlı Arazı, Arpaçayı var məndə.*

*Bayatı dağlı sinəmdən umanım qoy umsun,*
*Bir çiçək hər dərənin nağmə payı var məndə.*

*Damarımda qan ağır addım atır… Neyləməli?*
*Ellərin, bəlkə, boğulmuş harayı var məndə!*

***Nadir İLAHİ, Xiyav***

## Buyurun içərimə

*İçdən söz açıram*
*İçimdən!*
*Polislər!!!*
*Gəlin,*
*Seçin,*
*Aparın,*
*Sağçıları,*
*Solçuları…*
*Əziz terroristlər,*
*bomba qoymağa yer,*
*uçaq partlamağa göy*
*tapmadınızsa*
*buyurun içərimə!*
*Jurnalistlər!*
*Siz!*
*Tökülün içimə*
*Kameralarınızı*
*Mikrofonlarınızı*
*Sevdiyiniz yerlərimdə əkin!*
*Yalan əkin! Doğru biçin!*
*Dünyamın qiyamətini qurmuşam*
*neçə dəqiqə sonraya,*
*Dünyamın qiyaməti çox da inanılmaz deyil!*

***Aydın ARAZ, Culfa***

## İki kəlməlik sözüm var

*Dünya dolanır.*
*Dünya o qədər dolanacaq ki,*
*Hər şey tərsinə çevriləcək.*
*Artıq heç bir it hürməyəcək insanlara.*

***Alma MUĞANLI, Tehran***

Xalq qəzeti .- 2023.- 2 fevral.- S.10.